ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 1.790. 2022 / Cild: 16 Sayı: 12 / 70-75 ISSN: 2663-4619
SCIENTIFIC WORK International scientific journal. Impact Factor: 1.790. 2022 / Volume: 16 Issue 12 / 70-75 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/85/70-75

**Aynur Kəmaləddin qızı Adnalı**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
aynur.adna1918@gmail.com
**Gülarə Xurşud qızı Orucova**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
gulare.orucova2001@gmail.com
**Nihad Müşviq oğlu Yəhyalı**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
nihadyahyali1@gmail.com

# TÜRKİYƏ VƏ YUNANISTAN ARASINDA YÜZİLLİK MÜNAQİŞƏ: EGEY ADALARI

**Xülasə**

Göründüyü kimi, Egey adaları problemi tarixi bir problemdir və onun həlli də tarixi araşdırmalara və bu uzun müddət ərzində bağlanılan müqavilələrin şərtlərinə əsaslanmalıdır. Ümumi olaraq demək olar ki, Yunanıstanın 1960-cı illərdən sonrakı davranışları, Paris və Lozan müqavilələrinin maddələrini pozması həm siyasi, həm də beynəlxalq hüquq baxımından qanunsuz davranışdır.

Son olaraq qeyd edək ki, hal-hazırda Türkiyə ilə Yunanıstan arasında Egey dənizində baş verən bütün problemlərin qaynağı olan "ada adacıq və qayalıqlar problemi" qarşılıqlı anlayış və müqavilələrin (Lozan və Paris müqavilələri) şərtlərinə hörmət çərçivəsində danışıqlarla həll edilə biləcək səviyyədə olan bir problemdir. Lakin məsələnin bu şəkildə hələ də həll oluna bilməməsi problemi get-gedə daha da mürəkkəb bir hala çevrilir.

***Açar sözlər:*** *Türkiyə, Yunanıstan, Egey dənizi, müqavilə, Paris müqaviləsi, Lozan müqaviləsi, hüquq, siyasət, müharibə*

**Aynur Kamaladdin Adnali**
Under the President of the Republic of Azerbaijan
Academy of Public Administration
master student
aynur.adna1918@gmail.com
**Gulara Khurshud Orujova**
Under the President of the Republic of Azerbaijan
Academy of Public Administration
master student
gulare.orucova2001@gmail.com
**Nihad Mushvig Yahyali**
Under the President of the Republic of Azerbaijan
Academy of Public Administration
master student
nihadyahyali1@gmail.com

## Centennial conflict between Turkey and Greece: Aegean Islands

### Abstract

As you can see, the problem of the Aegean islands is a historical problem, and its solution must be based on historical research and the terms of the agreements concluded during this long period. In general, it can be said that the behavior of Greece after the 1960s, the violation of the articles of the Paris and Lausanne agreements, is an illegal behavior from the point of view of both political and international law. Finally, let us note that the "islet and reef problem", which is the source of all the problems currently occurring between Turkey and Greece in the Aegean Sea, is a problem that can be resolved through negotiations within the framework of mutual understanding and respect for the terms of the agreements (Lausanne and Paris agreements). However, the fact that the issue still cannot be resolved in this way makes the problem more and more complicated.

***Keywords:*** *Turkey, Greece, Aegean Sea, treaty, Treaty of Paris, Treaty of Lausanne, law, politics, war*

### Giriş

Müasir günümüzün ən aktual, problemli və qarışıq məsələlərindən biri Yunanıstan və Türkiyə arasındakı adalar problemidir. Son zamanlar tarixin müxtəlif dövrlərində olduğu kimi Egey adaları ilə bağlı Türkiyə ilə Yunanıstan arasında gərginlik davam edir. Bu gərginliyin əsas səbəblərindən biri ABŞ-ın Yunanıstanda, xüsusən də Türkiyə sərhəddinə yaxın olan Aleksandropolda hərbi bazalar qurması oldu. ABŞ bildirir ki, bu bazalar Rusiyaya qarşı qurulub, lakin Türkiyə bu bazaları özünə təhlükə kimi qəbul edir və bundan ruhlanan Yunanıstan Türkiyəyə qarşı təxribat xarakterli bəyanatlar verir. Bununla yanaşı, Yunanıstan əlində olan adaları silahlandırdığını nümayiş etdirir və bunun səbəbinin özünü müdafiə etmək hüququndan irəli gəldiyini bildirir. Əslinə qalsa, Yunanıstanın belə bəyanatları heç kimi təəccübləndirmir. Amma hazırkı vəziyyətdə fərq ondan ibarətdir ki, hər zaman Qərbin dəstəyinə arxalanan Yunanıstan indi ABŞ-ın dəstəyinə arxalanaraq belə bəyanatlar verir. 2021-ci ilin oktyabrında Yunanıstanda ABŞ ilə "Qarşılıqlı müdafiə sahəsində əməkdaşlıq sazişi" tərəflər arasında "müdafiə" sahəsində əməkdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi istiqamətində atılan addım kimi görünsə də, onun regiondakı bu addımları ABŞ-ın qlobal hegemoniyasını dərinləşdirmə addımlarından biri kimi nəzərə çarpır (1). ABŞ-ın artıq Yunanıstanda, Kritdə mövcud olan su bazasına əlavə olaraq daha 3 baza yerləşdirməyə icazə verən bu razılaşma Yunanıstan xalqı və bölgədəki digər ölkələr üçün də narahatlıq doğurur. Bütün bunlarla əlaqədar olaraq Türkiyə 6 iyun 2022-ci ildə BMT-nin Baş katibi Antonio Qutarreşə Yunanıstanın Şərqi Egey adalarının tərksilah statusunu pozması və Yunanıstanın müvafiq müqavilələrlə üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməməsi ilə bağlı altı bəndlik məktub təqdim edib. Bundan sonra isə "Efes−2022" təlimi zamanı prezident Rəcəb Tayyib Ərdoğan: "Yunanıstanı qeyri-hərbi statusa malik adaları silahlandırmaqdan əl çəkməyə və beynəlxalq müqavilələrə uyğun hərəkət etməyə dəvət edirik" − deyərək daha aydın bir şəkildə məsələni dilə gətirərək mesaj verib. Prezident Ərdoğan qətiyyətini bu cümlə ilə ifadə edib: "Mən adalarla zarafat etmirəm" (2).

Bəs tarixin bütün dövrlərində müzakirə mövzusu olan, BMT və NATO-nun da gündəmində olan, olduqca qarışıq olan Egey adaları problemi haradan qaynaqlanır? Necə oldu ki adalar itirildi? Bu mürəkkəb məsələ haqda danışmaq üçün, ilk öncə problemin haradan qaynaqlandığına aydınlıq gətirmək lazımdır.

Türkiyə və Yunanıstan öz milli müstəqilliklərini əldə edənə qədər uzun tarixi birliyi paylaşmışlar. İstanbulun türklər tərəfindən fəthindən XIX əsrin sonlarına qədər yunan xalqı Osmanlı İmperiyasının hakimiyyəti altında olmuşdur. Yunanıstan müstəqillik əldə etdikdən sonra xarici siyasətini ərazi qazancı əsasında quraraq Osmanlı İmperatorluğuna qarşı ərazisini xeyli genişləndirsə də, təəssüf ki, beynəlxalq ictimaiyyəti ümumilikdə iki xalq arasındakı münasibətlərdə zərər çəkən tərəf olduğuna inandırmaqda uğur qazanmışdır. Türkiyə və Yunanıstan arasında hələ də qalmaqala səbəb olan Egey dənizindəki problemlər Yunanıstanın bir dövlət olaraq tarix səhnəsinə

çıxdığı vaxtdan başlamış, 24 iyul 1923-cü il tarixli Lozanna sülh müqaviləsi ilə hüquqi və siyasi məna qazanmışdır.

Egey dənizinin ümumi coğrafi mövqeyi ona dünyada bənzəri olmayan fərqli bir xüsusiyyət qazandırmışdır. Qədim dövrlərdən belə bir inanc var idi ki, bu adalara sahib olan Qərbə də hakim olacaqdır. Bölgə Türkiyə və Qara dəniz sahili olan dövlətlər baxımından eyni dərəcədə əhəmiyyətlidir. Məlumdur ki, Türkiyənin xarici ticarətinin təxminən 90%-i dəniz yolu ilə həyata keçirilir. Egey dənizi isə Türkiyənin Egey, Mərmərə və Qara dəniz limanlarındakı dəniz ticarətinin təxminən 75%-nin keçdiyi dənizdir (Sertac, 2006:25).

Egey dənizi öz mövqeyinə görə ticarətinin əhəmiyyətli bir hissəsini boğazlar və Egey dənizi vasitəsilə həyata keçirən Rusiya Federasiyası və Qara dəniz sahili olan başqa dövlətlər üçün hər zaman əhəmiyyətlidir (Sertac, 2006:26). Qeyd etmək lazımdır ki, problemin həllinə sadəcə Yunanıstan və Türkiyə deyil, həmçinin Avropa ölkələri, Rusiya və İsrail də maraqlıdır. Burada əsas səbəb ondan ibarətdir ki, Egey dənizinin delimitasiyası, öz növbəsində, Şərqi Aralıq dənizinin delimitasiyasına da əsaslı təsir edir. Belə ki, Şərqi Aralıq dənizində yeni neft və qaz yataqlarının kəşf edilməsi ilə bu yataqlar əgər problem Türkiyənin xeyrinə həll edilərsə, Türkiyənin, Yunanıstanın xeyrinə həll edilərsə isə Cənubi Kiprin ərazi sularına aid olacaqdır. Bu isə, əlbətdə ki, öz növbəsində Avropanın Rusiyadan enerji asılılığına birbaşa təsir edən amildir.

İlk öncə qeyd edək ki, "12 ada" adlandırılan Egey adaları 24 əsas ada və başqa kiçik qayalıqlardan ibarətdir. Bu adaların "12 ada" adlandırılmasının səbəbi adaların idarəçilik sistemi ilə bağlıdır. Belə ki, Osmanlı dövləti qeyri-müsəlmanlar yaşayan ərazilərdə bu sistemi tətbiq etmişdir. Bu sistemə görə hər 10 təsərrüfat öz arasından bir nümayəndə seçir, həmin nümayəndələr isə bölgəni idarə etmək üçün 12 nəfərlik ağsaqqallar şurasını təyin edirdilər (4). Egey adalarında tarix boyu müxtəlif tayfalar hakim olmuşdur. Roma dövründə bu adalar genuyalıların və venesiyalıların hakimiyyəti altında qalmışdır. XIV əsrin əvvəllərində isə Saint Jean cəngavərləri Qüdsü tərk edərək Rodos və digər adalarda məskunlaşmış, bu adalar da İtalyan dövlətləri və cəngavərlər arasında bölüşdürülmüşdür (Belen, 1995:79).

Egey adalarında türklər Osmanlı imperiyası zamanı hakimiyyətə gəlmişdir. Qeyd edək ki, Osmanlı hakimiyyəti dövründə burada məskunlaşan xalqa dinlərini qoruyub saxlamaq və öz xalqlarını maraqlandıran məsələlərdə sərbəst qərar vermək hüququ verilmişdir. Yunanıstanın müstəqillik qazanmasından sonra Egey adaları türk hökmranlığından çıxmağa başladı. Belə ki, Trablis müharibəsindən sonra İtaliya Menteşe adalarını, Balkan müharibələri nəticəsində isə Yunanıstan digər böyük adaları işğal etdi. Bu işğallar Birinci Dünya müharibəsi zamanı da geniş vüsət aldı. Beləliklə, Egey adaları üzərindəki türk hökmranlığı əslində sona çatdı (2013:101-128). 1829-cu ildə Ədirnə müqaviləsinin maddələrinə və 1830-cu il London protokoluna görə Qərbi Egey adaları Yunanıstan dövlətinin suverenliyinə verilmişdir (Pazarcı, 1992:10). Krit adaları və Şərqi Egey adaları isə Osmanlının suverenliyi altında qalmaqda davam edirdi (Shukru, 1993:61). Krit adası isə 1897-ci ildə Osmanlıdan faktiki olaraq ayrılmış, amma Balkan müharibəsinə kimi rəsmi olaraq Osmanlı İmperatorluğunun mülkü olaraq qalmışdır (Niyazi, 1991:98).

Yunanıstanın müstəqilliyindən sonra Osmanlının Egey adaları üzərindəki suverenliyinə ilk hücum İtaliyadan gəldi. İtaliya 1911-ci ildə Osmanlı İmperatorluğuna müharibə elan etdi. 1912-ci ildə başlayan İtalyan işğalı nəticəsində Menteşe adaları bölgəsindəki cəmi 16 ada İtaliya tərəfindən tutuldu. İşğal nəticəsində İtaliya ilə Osmanlı İmperiyası arasında Uşi Sülh Müqaviləsi imzalandı. Müqavilənin 2-ci maddəsinə görə İtaliya adaları Osmanlı İmperatorluğuna qaytarmağa razılaşdı. Lakin Balkan müharibəsi və ondan sonrakı mürəkkəb siyasi proseslər səbəbindən Osmanlı İmperatorluğunun qismən razılığı ilə adaların İtalya tərəfindən işğalı davam etdi (Kurumahmut, 1998:23). Bu dövrdə başlayan Balkan müharibəsi zamanı Yunanıstanın sözügedən adaları işğal edəcəyindən narahat olan Osmanlı İtaliya ilə gizli müqavilə bağlayır: Sadrazam Kamil Paşanın 29 dekabr 1912-ci ildə Hərb Nazirliyinə yazdığına görə: "Müqaviləyə uyğun olaraq bizim tərəfimizdən Tripoli və Benqazinin boşaldılmasından sonra İtaliya İtaliyanın işğalı altında olan adanı boşaldacaq. Sakinləri fundamental və müdafiə gücündən məhrum olan bu adaların yunanlar tərəfindən işğal olunma ehtimalı var. Osmanlı dövləti və İtaliya dövləti Yunanıstan hökuməti ilə sülh razılaşması

əldə olunana qədər adaları İtaliyanın işğalı altında saxlamağa razılaşdılar. Boğazlara hakim olmaq üçün Yunanıstan adaları işğal etmə stratgiyasına əsaslanırdı. Bu müharibə nəticəsində Tasos, Lesbos, Sakız adaları, Psara, Nikariya, Samotrakiya, Gökçeada və başqa Şərqi Egey adaları Yunanıstan tərəfindən işğal edildi.

1914-cü ilin fevralında Londonda altı Avropa dövləti (İngiltərə, İtaliya, Fransa, Almaniya, Avstriya-Macarıstan və Rusiya) toplandı. Müzakirənin nəticələrinə görə, 12 adalar İtaliyaya, Gökçeada və Bozcaadan xaricdəki Şərqi Egey adaları isə silahsızlandırmaq və minimum əsgər saxlamaq şərti ilə Yunanıstana verildi (Kurumahmut, 1998:28-32). Qeyd etmək lazımdır ki, Osmanlı dövləti Balkan müharibəsinə hazırlıqsız yaxalanmış və müharibəyə də böyük çatışmazlıqlarla girmişdir. Bu dövrdə quru cəbhələrindəki problemlər və pozulmalar dəniz cəbhələrində də yaşanmış və beləliklə Egey dənizindəki üstünlük tamamilə Osmanlının əlindən çıxmışdır (11). Əgər TBMM tərəfindən tanınmayan və qüvvəyə minməyən Sevr müqaviləsini saymasaq, Egey dənizi məsələsi Lozanna konfransında yenidən gündəmə gəlir. Birinci Dünya müharibəsi zamanı Osmanlı və İtaliya ayrı-ayrı ittifaq qrupları tərkibində bir-biri ilə döyüşə girdi və 4 illik müharibənin sonunda Osmanlı İmperiyası müharibədən məğlub şəkildə ayrıldı. 1923-cü ildə bağlanmış Lozanna müqaviləsi ilə bəzi adalar İtaliyaya verildi. Bu adalar İkinci Dünya müharibəsinin sonuna qədər İtaliyanın işğalı altında qalmaqda davam etdi. Yalnız bu məsələ müharibədən sonra yenidən gündəmə gəldi. Bunun da səbəbi İtaliyanın İkinci Dünya müharibəsində məğlub olması idi. 1946-cı ildə Parisdə keçirilən sülh danışıqları zamanı 12 ada bu dəfə də İtaliyadan alınaraq demilitarizasiya şərti ilə Yunanıstana verildi (12). Adaların Yunanıstana verilməsi qərarının səbəbi kimi isə adalarda yaşayan əhalinin əksəriyyətinin yunan olması göstərilirdi. Üstəlik, İtaliya Lozanna sülh müqaviləsinin 16-cı maddəsinə uyğun olaraq bütün hüquq və mənafelərindən imtina etdi. Qeyd edək ki, Türkiyə bu konsfranslara tərəf olmamışdır. Əhali balansına əsaslanaraq qərarların verilməsi Türkiyəyə qarşı qanunsuz hərəkət idi. Əgər Türkiyə bu konfranslarda iştirak etmə imkanına səhib olsa idi, bu cür qanunsuzluqlara etiraz edə bilərdi. Məsələn, Qərbi Trakyada əhalinin təxmini 80 faizi türk və müsəlmanlardan ibarətdir (13). Lakin Lozanna müqaviləsində Qərbi Trakya bölgəsi Yunanıstana verilmişdi. Bu da verilən qərarın nə dərəcədə yalnış olduğunun göstəricisidir. Müqavilələrə görə, adalarda və adaların ərazi sularında heç bir baza və ya istehkam qurulmamalı, hərbi təlimlər keçirilməməlidir. Hər iki müqavilə ilə adalarda hüquq-mühafizə orqanları kimi yalnız məhdud sayda hüquq-mühafizə qüvvələrinin saxlanılmasına icazə verilir.

Beləliklə, Yunanıstanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları çərçivəsində Yunanıstanın Şərqi Egey adalarını silahlandırmaq kimi bir hüququ yoxdur. Lakin Türkiyənin etirazlarına və müqavilədə üzərinə götürdüyü öhdəliklərinə baxmayaraq, Afina 1960-cı illərdən bəri adaları silahlandıraraq Şərqi Egey adalarının qeyri-hərbi statusunu pozmağa davam edir. Buna cavab olaraq, Türkiyə 1960-cı illərdən Yunanıstanda diplomatik kanallar vasitəsilə etiraz aksiyası keçirir və pozuntuların dayandırılmasını tələb edir. Bu problem hətta 1970-ci illərdə BMT və NATO-nun da gündəmində olan məsələlərdən idi. Türkiyə 1964 və 1975-ci illərdə bu məsələni BMT qarşısında qaldırsa da, Kipr Sülh Əməliyyatından sonra silahlanma daha da sürətlənib. Türkiyə və Yunanıstanın gətirdiyi hüquqi arqumentlər və mövcud vəziyyətin hüquqi qiymətləndirilməsi bəzi mühüm məsələləri ortaya qoyur. Əvvəla, qeyd etmək lazımdır ki, Yunanıstan hesab edir ki, Türkiyənin adalardakı fəaliyyəti onların təhlükəsizliyini təhdid edir və Yunanıstan sırf buna görə özünümüdafiə hüququndan istifadə edərək adaları silahlandırır. Yunanıstan öz hərəkətlərinə bəraət qazandırmaq üçün Türkiyənin Yunan adalarına qarşı böyük amfibiya əməliyyatı keçirməyə qadir olan və bu məqsədlə yaradılmış Egey Ordusunun Kiprdəki kimi ani bir hücumla sahildəki adaları işğal edəcəyini iddia edir. Lakin beynəlxalq hüquqa görə, özünümüdafiə hüququndan yalnız mövcud hücum vəziyyətində istifadə etmək olar. Buna görə də, Türkiyənin buradakı adi sayılan fəaliyyətləri "hücum" olaraq xarakterizə edilə bilməz, eyni zamanda "müdafiə" məqsədilə adaların silahlandırılması özünümüdafiə hüququna heç bir şəkildə əsaslanmır. Bununla bərabər, Türkiyənin 1947-ci il Paris Sülh Müqaviləsinə üzv olmaması o demək deyildir ki, Yunanıstanın bu adaların tərksilahı ilə bağlı müddəaları poza bilər. Tərksilah ilə bağlı

müddəanın pozulması birbaşa dövlətin milli təhlükəsizliyinə təhdid olduğu üçün Türkiyənin bu problemləri dilə gətirməsinə mane olan heç bir beynəlxalq hüquq norması yoxdur.

70-ci illərdən günümüzə qədər yaşanan mübahisəli məsələlərdən ən ciddisi Kardak böhranı olmuşdur. Kardak böhranı iki ölkəni müharibə həddinə çıxarmışdır. Belə ki, 1990-cı illər Türkiyə siyasəti üçün təlatümlü idi, terror hadisələrinin artması ilə təhlükəsizlik məsələsi ölkənin əsas gündəmi idi. Hadisədən 26 il keçməsinə baxmayaraq hələ də bu böhran unudulmayıb (14). Kardak Bodrum və Yunanıstanın Kalimnos adası arasında yerləşir və boş qayalıqdan ibarətdir. Böhran Cümhuriyyət tarixində Türkiyə və Yunanıstanı müharibənin astanasına gətirmişdir. Belə ki, 25 dekabr 1995-ci ildə "Figen Akat" adlı türk yük gəmisi bu qayaların üzərində quruya çırpılır. Hadisədən sonra tez bir zamanda addım atılmalı idi. Əsas məsələ isə bu idi − kimdən kömək istəmək lazım idi? Hadisədən sonra Yunanıstan bölgənin özünün ərazi suları içərisində olduğunu iddia edərək, vəziyyətə müdaxilə etmək istəsə də, gəminin kapitanı ərazinin Yunanıstana deyil, Türkiyənin ərazi sularına aid olduğunu bildirərək, yardım təklifini rədd edib. Bu hadisədən sonra hər iki ölkə arasında Kardak (İmia) qayalarının suverenliyi problemi rəsmi xarakter qazanmışdır (Meral, 2018:21-36). Qəzadan bir neçə gün sonra Yunanıstan Kardak qayalarının 1932-ci ildə Yunanıstan və İtaliya arasında bağlanan razılaşmaya əsasən Yunanıstana qaldığı iddia edərək Türkiyəyə nota verib. Türkiyə tərəfində isə Kardak qayalarının Türkiyəyə aid olduğun sübut edən torpaq reyestr qeydlərini əsas gətirərək notanı rədd edib. 1996-cı ildə prosesi mürəkkəbləşdirən daha bir hadisə baş verir. Kalimnos şəhərinin meri Dimitris Diakomihalis keşiş və jurnalistlərin müşayiəti ilə Kardak qayalığına çıxıb Yunanıstan bayrağı sancır ki, bu görüntülər Türkiyəni ayağa qaldırır. 27 yanvar tarixində iki türk jurnalist vertolyotla Yunanıstan bayrağını endirərək və Türkiyə bayrağını qaldırır. Növbəti gün Yunanıstan Hərbi Dəniz Qüvvələrinə məxsus bir qayıq yenidən Türkiyə bayrağını endirir. Yanvarın 30-da baş nazir Tansu Çillər Yunanıstan bayrağına işarə edərək: "O bayraq enəcək, bu əsgər gedəcək" − deyə ifadə işlədir (16). Bu hadisədən sonra Amerikanın müdaxiləsi ilə hər iki tərəf qısa zamanda qayalardan çəkilməyə razı olur.

## Nəticə

26 il keçməsinə baxmayaraq, bu qayaların statusu hələ də müzakirə məsələsidir. Lakin razılığa əsasən qayalar üzərində nə Türkiyə, nə də Yunanıstan bayraqları dalğalanmır. Son olaraq qeyd edək ki, həm iki ölkə arasında razılaşmalar, həm də NATO prosesində həyata keçirilən beynəlxalq sülh və hər iki ölkənin maraqlarının müdafiəsi nəzərə alınmaqla, eyni zamanda yaranacaq münaqişələrin qarşısını almaq üçün Lozanna müqaviləsinin müəyyənedici qaydaları çərçivəsində hüquqi status və sərhədlər müəyyən edilmişdir. Buna görə də işğalçılıq siyasəti yürütmək istəyən Yunanıstanın son vaxtlar sərhəddə həyata keçirdiyi qanunsuz hərəkətləri beynəlxalq hüquq zəminində hüquqi baxımdan qəbuledilməzdir. Yunanıstan qeyri-qanuni sərhəd pozuntularına davam edəcəyi təqdirdə, Türkiyənin bu ədalətsiz hərəkətlərə öz adından cavab verə biləcəyi şübhəsizdir.

## Ədəbiyyat

1. https://haber.sol.org.tr/haber/bir-ulke-daha-kucuk-amerikalasirken-abdnin-yunanistan-plani-nedir-336672
2. https://www.yenicaggazetesi.com.tr
3. Sertac, H.B. (2006). "Aegean problems". Turkish marine research foundation.
4. https://www.milliyet.com.tr
5. Belen. (1995). "Aegean Sea and Aegean Islands". Istanbul: War Academies Publishing House.
6. Ankara University, Turkish Revolution History Institute, Journal of Ataturk Road (Lozan Treaty Special Issue). (2013).
7. Pazarcı. (1992). "Demilitarized Status of the Eastern Aegean Islands". Ankara: Turhan Bookstore.
8. Shukru, S. (1993). "Turkish-Greek Relations in the Historical Dimension". Ankara: Umit Publications.

9. Niyazi, A. (1991). "Crete and Ottoman Period in History". Istanbul: Kastas Publications.
10. Kurumahmut, A. (1998). "The Main Problem in the Aegean, the Islands with Controversial Domination". Ankara: Turkish Historical Society Press.
11. Journal of Contemporary Turkish History Studies Journal of Modern Turkish History Studies XII/25 (2012-Fall/Autumn).
12. https://21yyte.org
13. https://www.mfa.gov.tr
14. https://www.sonhaber.com.tr/makale/bir-bayrak-dikme-yarisi--kardak-krizi/
15. Meral, B. (2018). The struggle for dominance in the Aegean Sea, the rocky crisis, current studies in international relations.
16. https://www.bbc.com

**Rəyçi: s.e.ü.f.d. Cahangir Cahangirli**

Göndərildi: 09.10.2022 Qəbul edildi: 20.11.2022